

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 30 (23.192)

12 fevral 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının fəxri sədri, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib.

Görüşdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə xüsusi qeyd olunub, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında” 9 fevral 2019-cu il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının vergilər naziri

**Azər İslam oğlu Nağıyevə**

3-cü dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsi verilmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının təltif edilməsi haqqında” 9 fevral 2019-cu il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında vergi sisteminin inkişafında xüsusi xidmətlərinə görə Vergilər Nazirliyinin əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşları da vardır.

**Əliyev Rəşad Qəhrəman oğlu**

**Sultanova Sədaqət Ramiz qızı**

1-ci dərəcəli “Vergi orqanlarında xidmətdə fərqlənməyə görə” medalı ilə təltif edilmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 11 fevral tarixli Sərəncamı ilə xidməti vəzifələrini və qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bir qrup hərbi qulluqçusu təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçuları da vardır.

**Əliyev Vüsal Akif oğlu – mayor**

**Əsədullayev Vilayət Fətulla oğlu – kapitan**

“Hərbi xidmətlərə görə” medalı ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublikasının yaranmasının 95-ci ildönümü qeyd olunmuşdur



Fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 95-ci ildönümü qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95-ci ilidir. Azərbaycanın dövlətçilik tarixində Naxçıvan Muxtar Respublikası mühüm rola malikdir. Tarixi mənbələrdən məlumdur ki, hələ yeddinci əsrdə, ərəblərin gəlişi zamanı burada müstəqil idarəçilik olmuş, onuncu əsrdə Naxçıvan Şahlığı feodal dövləti yaranmışdır. Naxçıvan şəhəri on ikinci əsrdə Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuş, on səkkizinci əsrdə isə Naxçıvan xanlığının siyasi mərkəzi kimi inzibati idarəçiliyin formalaşmasına öz töhfəsini vermişdir. 1918-ci ildə Naxçıvanda bir milyondan çox əhaliyə malik Araz-Türk Respublikası yaradılmışdır. 1924-cü ildə isə Naxçıvana muxtar respublika statusu verilmişdir. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasına əsasən həmin tarixdən Naxçıvan Muxtar Respublikası muxtar dövlətdir.

Ali Məclisin Sədri demişdir: Naxçıvanın muxtariyyəti asanlıqla qazanılmamış, böyük tarixi, hərbi-siyasi və diplomatik mübarizələrin nəticəsi kimi meydana çıxmışdır. 1920-ci ildə Azərbaycanın Zəngəzur mahalı Ermənistana verildikdən sonra ölkənin əsas ərazisindən təcrid olunan Naxçıvanın muxtariyyət məsələsi zərurətə çevrilmişdir. O dövrdə bunu zəruri edən mühüm bir amil də naxçıvanlıların daim Azərbaycanla bir olmaq tələbi, ana Vətəndən ayrı düşməmək istəyi idi.

Qeyd olunmuşdur ki, Naxçıvana muxtariyyət verilməsinin əsas səbəblərindən biri də bu məsələnin böyüyərək regional müstəviyə çıxması və beynəlxalq hüququn subyektinə çevrilməsi idi. Göstərmək kifayətdir ki, Naxçıvan məsələsi 1918-1921-ci illər ərzində altı ölkədə müxtəlif səviyyələrdə iyirmi dəfədən çox müzakirəyə çıxarılmış, sonda isə Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, qardaş Türkiyə hökumətinin tutduğu ədalətli mövqe nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən beynəlxalq Moskva və Qars müqavilələri imzalanmışdır. Bu müqavilələrin davamı və yaranmış real vəziyyətin hüquqi təsdiqi olaraq 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılması haqqında Dekret verilmişdir. Bu, Azərbaycan xalqının olduqca mürəkkəb və çətin şəraitdə əldə etdiyi ən böyük tarixi nailiyyət idi.



Ali Məclisin Sədri demişdir: Naxçıvanın muxtariyyət statusunun möhkəmlənməsində bu illər ərzində qəbul olunmuş konstitusiyalar da mühüm rol oynamışdır. 1926-1978-ci illərdə Naxçıvan Muxtar Respublikasının üç konstitusiyası, ölkəmiz müstəqillik qazandıqdan sonra, 1998-ci il dekabrın 29-da isə yeni konstitusiyası qəbul olunmuşdur. Ötən 95 il ərzində Naxçıvanın muxtariyyət bayramlarının 8 dəfə qeyd olunması da bu məsələnin siyasi gündəlikdə saxlanmasını şərtləndirmiş, muxtariyyət tarixi araşdırılmış və tədqiq olunmuşdur. Bütün bunlar onu göstərir ki, ölkəmizdə muxtariyyətin tarixi, hüquqi və siyasi bazası formalaşmış, Naxçıvan Muxtar Respublikası böyük inkişaf yolu keçmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi, ***“Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu, Heydər Əliyev yolunun təntənəsidir”.***



“Ulu öndər Heydər Əliyevin quruculuq yolu ilə gedən Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi sahədə də böyük inkişafa nail olub. Əhalinin həyat şəraiti və güzəranı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Bu inkişaf əhali artımına və məskunlaşmaya da öz təsirini göstərmiş, muxtariyyətin əvvəlindən bu günə muxtar respublika əhalisi 5 dəfə artaraq 456 min nəfərə çatmışdır”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası özünün böyük tarixi keçmişinə və milli dəyərlərinə sahibdir. Qədim tarixi abidələrimiz, gələcəyimiz olan gənc nəsil himayə olunur, milli adət və ənənələrin qorunması üçün tədbirlər görülür. Görülən işlərin nəticəsidir ki, Naxçıvan artıq beynəlxalq elm, mədəniyyət və idman tədbirlərinə də ev sahibliyi edir, elmi konfrans və simpoziumlar, rəsm festivalları keçirilir. Naxçıvan Muxtar Respublikası enerji, informasiya, ərzaq və müdafiə təhlükəsizliyi yüksək səviyyədə təmin olunan diyardır.

Şübhəsiz ki, muxtar respublikanın inkişafında insan faktoru da mühüm rol oynamışdır.

Ardı 2-ci səhifədə



Ötən dövr ərzində hər bir muxtar respublika sakininin çəkdiyi əmək Naxçıvan Muxtar Respublikasının inkişafına, müdafiəsinə və nəticə etibarı ilə bugünkü tərəqqisinə xidmət etmişdir. Aparılan quruculuq işlərinə, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafına öz töhfələrini verənlərin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, onlar dövlət mükafatları və fəxri adlarla təltif olunmuşlar.

Ali Məclisin Sədri tarixi gündə muxtariyyətin və torpaqlarımızın müdafiəsində şəhid olanları yad etmiş, sabitliyin və sərhədlərin qorunmasında, inkişafın təmin edilməsində əməyi olanlara təşəkkürünü bildirmiş, tədbir iştirakçılarını muxtariyyət günü münasibətilə təbrik etmiş, çıxışını ümummilli lider Heydər Əliyevin fikirləri ilə tamamlamışdır: ***“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox mühüm amildir. Biz bu amili qoruyub saxlamalıyıq”.***

Sonra Naxçıvan Dövlət Televiziyasının hazırladığı “Muxtariyyətin 95 ili” filminə baxış olmuşdur.

Tədbirdə Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası təltiflərinin və mükafatının təqdimatı olmuşdur.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 iyun, 10 oktyabr, 19 oktyabr, 30 oktyabr, 20 noyabr, 5 dekabr, 25 dekabr, 2019-cu il 31 yanvar tarixli Sərəncamları ilə muxtar respublikada səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs 1-ci, 2-ci və 3-cü dərəcəli “Əmək” ordenləri, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “İgidliyə görə”, “Tərəqqi” və “Dövlət qulluğunda fərqlənməyə görə” medalları, Azərbaycan Respublikasının “Əməkdar mühəndisi” və Azərbaycan Respublikasının “Əməkdar kənd təsərrüfatı işçisi” fəxri adları ilə təltif olunmuşlar.

Ali Məclisin Sədri orden, medal və fəxri adların döş nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim etmişdir.

Təltif olunanlardan Həzi Həsənov, Hüseyn Məmmədov, Hicran Muradov, İsa Qasımov, Minayə Xəlilova, Məmməd Məmmədov, Bayram Nəcəfov, Xaliq Abbasov, Aybəniz Fərəcova, Vidadi Naibov, Seyfəddin Xəlilov, Fikrət Həsənov, Mübariz Şirəliyev, Elxan Quliyev və Azad Cabbarov əməklərinə verilən yüksək qiymətə görə ölkə Prezidentinə minnətdarlıq etmiş və bunu çalışdıqları kollektivlərin fəaliyyətinə göstərilən qayğı kimi dəyərləndirmişlər. Qeyd olunmuşdur ki, ulu öndərimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi bütün sahələrdə inkişafı təmin edib. Qazanılan uğurlar və bu işdə əməyi olanların dövlətimizin yüksək mükafatlarına layiq görülməsi məsuliyyət və etimadı daha da artırır. Təltif olunanlardan Azad Cabbarov Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illik yubileyi münasibətilə muxtar respublika gəncləri adından Ali Məclisin Sədrini təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 8 fevral tarixli Sərəncamına əsasən “Naxçıvan Azərbaycan dövlətçilik tarixində” kitabı elm sahəsində Naxçıvan Muxtar Respublika mükafatına layiq görülmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvan Azərbaycan dövlətçilik tarixində” kitabına görə Naxçıvan Muxtar Respublika mükafatını kitabın müəllifi, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevə təqdim etmişdir.

İsmayıl Hacıyev minnətdarlıq edərək demişdir ki, muxtar respublikada elmin inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaranması və ötən dövrdə keçdiyi inkişaf yolu bu qayğının bəhrəsidir. 95 illik muxtariyyət tarixinin ötən 25 ilə yaxın bir dövründə bütün sahələrdə inkişaf, tərəqqi və sabitlik təmin edilib. Muxtar respublikanın yubileyləri yüksək səviyyədə qeyd olunub, muxtariyyətimiz daha da möhkəmləndirilib. İsmayıl Hacıyev verilən yüksək qiymətə görə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin kollektivi və elm adamları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 8 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs Naxçıvan Muxtar Respublikasının “Əməkdar müəllimi”, “Əməkdar dövlət qulluqçusu”, “Əməkdar hüquqşünası”, “Əməkdar jurnalisti”, “Əməkdar mədəniyyət işçisi”, “Əməkdar tibb işçisi”, “Əməkdar həkimi”, “Əməkdar rəssamı”, “Əməkdar kənd təsərrüfatı işçisi” və “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adlarına layiq görülmüşdür.

Ali Məclisin Sədri fəxri adların döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Naxçıvan Muxtar Respublikasının “Əməkdar müəllimi” fəxri adı ilə təltif olunmuş Güllü Allahyarova minnətdarlıq edərək demişdir: Muxtar respublikada təhsilin inkişafına xüsusi diqqət yetirilir. Bu gün Naxçıvan şəhəri ilə yanaşı, ən ucqar dağ kəndlərində də lazımi şəraiti olan məktəb binalarının tikilib istifadəyə verilməsi gələcəyimizə göstərilən qayğıdır. Müasir tədris avadanlıqları ilə təmin olunmuş məktəblər müəllimlərin fəaliyyəti üçün geniş imkanlar açır. Müəllimlərin əməyinin qiymətləndirilməsini də yaradılan şəraitin və təhsilə göstərilən qayğının bəhrəsi kimi dəyərləndiririk. Bu etimadın müqabilində daha səylə çalışacaq, ölkəmiz və xalqımız üçün savadlı və vətənpərvər gənclər yetişdirəcəyik.



Təltif olunanlardan Nurlana Əliyeva, Aybəniz Seyidova, Kəmalə Əliyeva, Bahar Hüseynova, Turac Xudiyeva, Hikmət Əliyev, Nadir Hüseynov, Ədalət İsmayılov və Aydın Mirzəyev muxtar respublikanın 95 illik yubileyində əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıq etmişlər.

Naxçıvan Muxtar Respublikasının “Əməkdar kənd təsərrüfatı işçisi” fəxri adı ilə təltif olunmuş fermer Qəzənfər Qurbanov çıxış edərək demişdir: Muxtar respublikada kənd təsərrüfatı sahəsində fəaliyyət göstərmək üçün geniş imkanlar yaradılıb. Torpaq mülkiyyətçiləri, fermerlər qayğı ilə əhatə olunub. Ailə təsərrüfatları inkişaf etdirilir. Ali Məclis Sədrinin yaylaqlarda olması, fermerlərlə görüşməsi və onların qayğıları ilə maraqlanması, eləcə də əməyimizin qiymətləndirilməsi bizi daha da ruhlandırır. Söz veririk ki, doğma diyarımızın inkişafına töhfəmizi verəcəyik.

Tədbir çay süfrəsi arxasında davam etdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda İran İslam Respublikasının yaranmasının 40-cı ildönümü münasibətilə tədbir keçirilib





Fevralın 11-də İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğu İran İslam Respublikasının yaranmasının 40-cı ildönümü – İslam İnqilabı Günü münasibətilə rəsmi qəbul təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak etmişdir.

Tədbirdə Azərbaycan Respublikasının və İran İslam Respublikasının Dövlət himnləri səsləndirilmiş, “Qurani-Kərim”dən ayələr oxunmuşdur.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom çıxış edərək inqilabdan ötən 40 il ərzində İran İslam Respublikasının keçdiyi inkişaf yolundan danışmış, bütün sahələrdə inkişafa nail olunduğunu bildirmişdir. Ölkəsinin beynəlxalq münasibətlərdəki mövqeyinə və dünya dövlətləri ilə əlaqələrinin inkişafına diqqəti çəkən Baş konsul demişdir ki, dost və qonşu ölkələr olan İran ilə Azərbaycan arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir, qarşılıqlı rəsmi səfərlər həyata keçirilir. İran İslam Respublikasının Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına da mühüm əhəmiyyət verdiyini bildirən Baş konsul İranın yaxın vilayətləri ilə muxtar respublika arasında əlaqələrin genişlənməsini səmərəli əməkdaşlığın nəticəsi kimi dəyərləndirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran xalqının milli bayramı – İslam inqilabının 40-cı ildönümü münasibətilə qardaş İran xalqını təbrik etmiş, İran dövlətinə inkişaf və tərəqqi arzulayaraq demişdir: Azərbaycan-İran əlaqələrinin əsası 1992-ci ildə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi İran İslam Respublikasına rəsmi səfəri zamanı qoyulmuşdur. Ulu öndərin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan-İran əlaqələri ilə bağlı müəyyənləşdirdiyi istiqamət xalqlarımızın maraqlarına uyğun şəkildə davam etdirilir. Ölkə Prezidentlərinin iradəsinə uyğun olaraq həyata keçirilən qarşılıqlı rəsmi səfərlər və birgə layihələr əlaqələrimizi möhkəmləndirir. Ölkələrimiz arasındakı əlaqələrə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasındakı əməkdaşlıq da öz töhfəsini verməkdədir. Ötən dövrdə tərəflər arasında əlaqələrin inkişafı üçün hər cür şərait yaradılmış, enerji, nəqliyyat, təhsil, turizm, iqtisadi-ticarət və səhiyyə sahəsində səmərəli əməkdaşlıq qurulmuşdur.

Ali Məclisin Sədri əlaqələrin inkişafında İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğunun fəaliyyətini qeyd etmiş, Baş konsula və konsulluğun əməkdaşlarına təşəkkürünü bildirmiş, çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***“Xalqlarımızı dərin tarixi və mədəni köklər bağlayır. İran-Azərbaycan əlaqələri bu möhkəm zəmin üzərində qurulur. Əminəm ki, birgə səylərlə İran-Azərbaycan əlaqələrini daha da yüksək pilləyə qaldıracağıq”.***

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Azərbaycan-İran dost və qardaş ölkələrdir





*40 il bundan əvvəl – 1979-cu il fevralın 11-də İran İslam Respublikası yaranmışdır. Həmin tarixdən başlayaraq hər il fevralın 11-i İran İslam Respublikasında Milli Bayram – İslam İnqilabı Günü kimi qeyd olunur.*

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə İran İslam Respublikasına səfərlər etmiş, 1992-ci il avqustun 24-də “Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikası arasında əməkdaşlıq protokolu” imzalanmış, Azərbaycan-İran münasibətlərinin əsası qoyulmuşdur. Dahi şəxsiyyət xalqın tələbi ilə ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da Azərbaycan-İran əlaqələrinin inkişafı diqqətdə saxlanmış, dövlətlərarası münasibətlərimiz yeni mərhələyə yüksəlmişdir. Bu dövrdən başlayaraq ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açılmışdır.

Ulu öndərimiz Azərbaycan-İran əlaqələrinə mühüm əhəmiyyət verərək deyirdi: ***“Azərbaycanın və İranın tarixi keçmişi, ölkələrimizin coğrafi vəziyyəti, dövlətlərimizin bugünkü siyasəti bizi daha sıx əməkdaşlığa dəvət edir”.***

Bu gün Azərbaycan-İran əlaqələri xalqlarımızın mənafeyinə uyğun olaraq mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində inkişaf etdirilir. İki ölkə arasında ikitərəfli və digər formatlarda davam edən uğurlu regional əməkdaşlıq iqtisadi-siyasi münasibətləri daha da möhkəmləndirir. Bu münasibətlərin təməlində isə yüksək səviyyəli qarşılıqlı səfərlər dayanır. Əldə olunan razılaşmalar, imzalanmış rəsmi sənədlər, həyata keçirilən birgə layihələr xoş məram, qarşılıqlı etimad, müştərək mənafe və mehriban qonşuluq əlaqələrinə əsaslanır.

Qarşılıqlı faydalı əməkdaşlıq Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında da əlaqələrin uğurlu inkişafını şərtləndirir. Naxçıvan Muxtar Respublikasının Culfa və Şahtaxtı Gömrük idarələrinin sərhəd-keçid komplekslərinin müasir tələblər səviyyəsində tikilib istifadəyə verilməsi və iş saatının artırılması, həmçinin muxtar respublikamıza səfər edən İran vətəndaşlarına sadələşdirilmiş qaydada viza olmayan birdəfəlik giriş icazələrinin verilməsi gedişgəlişin artmasına, iqtisadi-ticarət əlaqələrinin ilbəil genişlənməsinə səbəb olmuşdur.

Əlaqələrin inkişafı baxımından 2018-ci il daha məhsuldar olmuşdur. Belə ki, İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif ötən il aprelin 6-da muxtar respublikaya səfər etmiş, səfər zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüş keçirilmiş, qarşılıqlı əlaqələrin inkişafı ilə bağlı məsələlər müzakirə olunmuşdur. Həmçinin ötən il iyulun 14-də İran İslam Respublikasının maliyyə və iqtisadiyyat nazirinin müavini, Gömrük Administrasiyasının rəhbəri Foroud Asgari Azərbaycan və İran gömrük xidməti nümayəndələri arasında keçiriləcək görüşdə iştirak etmək məqsədilə Naxçıvan Muxtar Respublikasında olmuş və Ali Məclisin Sədri ilə görüşmüşdür. 2018-ci ilin mart ayından etibarən Naxçıvan Beynəlxalq Hava Limanında, may ayından isə muxtar respublikanın gömrük-keçid məntəqələrində giriş vizalarının da rəsmiləşdirilməsinə başlanılmış, Şahtaxtı gömrük-keçid məntəqəsi 16 saatlıq iş rejiminə keçmişdir.

Ötən il İranın Xoy və Miyandoab şəhərlərində keçirilən beynəlxalq güləş və boks yarışlarında muxtar respublika idmançıları da iştirak etmiş, İran İslam Respublikasının su elektrik stansiyalarının tikintisi sahəsində ixtisaslaşmış “Fərab” şirkətini təmsil edən nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur. Şiraz və Urmiya şəhərində təşkil olunmuş sərgilərdə muxtar respublikanın sahibkarlıq subyektləri də iştirak etmişlər. Ötən ilin mart ayında isə İranın Qərbi Azərbaycan Vilayəti sahibkarlarının Naxçıvan şəhərində üçüncü sərgi-satışı keçirilmişdir. İranın Şərqi Azərbaycan Vilayəti Dəmir Yollarının nümayəndə heyəti Naxçıvana səfər etmiş, yük daşınması ilə əlaqədar məsələlər müzakirə edilmişdir. Səhiyyə sahəsindəki əməkdaşlığa uyğun olaraq aprel ayında muxtar respublika həkimlərindən ibarət nümayəndə heyəti Urmiya şəhərində, iyun ayında isə iranlı həkimlərdən ibarət nümayəndə heyəti Naxçıvanda keçirilən beynəlxalq konfransda iştirak etmişdir. Bundan başqa, İran İslam Respublikasının “Dövlət işçilərinin istehlakçı birlikləri”nin icraçı direktorlarından ibarət nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər edərək istehsal müəssisələri ilə tanış olmuşdur. Ötən ilin dekabrında isə Tehran şəhərində “Üçüncü İran İxracat İmkanları – İran EXPO-2018” adlı sərgidə muxtar respublika nümayəndələri də təmsil edilmişdir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran arasındakı ikitərəfli münasibətlərdə təhsil sahəsindəki əməkdaşlıq xüsusi yer tutur. Naxçıvan Dövlət Universiteti ilə Təbriz Universiteti, Təbriz Tibb Elmləri Universiteti, Azad İslam Universitetinin Mərənd filialı, Cihad Universiteti, Pəyami-Nur Universiteti, Urmiya Universiteti, Tehran Universiteti və Zəncan Universiteti arasında əlaqələr qurulmuşdur. Hazırda Naxçıvan Dövlət Universitetində 60-dan çox iranlı tələbə təhsil alır.

Bu gün ölkələrimiz arasındakı münasibətlər davamlı inkişaf mərhələsinə, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“İran-Azərbaycan əlaqələrinin uğurlu inkişafı bizi çox sevindirir. Bizim əlaqələrimiz tarixə əsaslanır. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir və ümumi işimizə böyük töhfədir”.***

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Sədərək Rayon Uşaq-Gənclər Şahmat Məktəbində görüş keçirilmişdir





***Fevralın 11-də Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası Sədərək Rayon Uşaq-Gənclər Şahmat Məktəbində müəllimlər, şahmatçılar və valideynlərlə görüş keçirmişdir.***

Şahmat Federasiyasının sədri Seymur Talıbov çıxış edərək demişdir ki, bu gün muxtar respublikamızda şahmatın inkişafı üçün hər bir şərait yaradılıb, yeni şahmat məktəbləri tikilərək istifadəyə verilib. Eyni zamanda Naxçıvanda, uşaq və yeniyetmələr arasında şahmatın kütləvi hal alması üçün tədbirlər görülür, məktəblərdə şahmat dərsləri tədris olunur. Buna baxmayaraq, federasiyanın işində müəyyən çatışmazlıqlar da var. Bunları aradan qaldırmaq məqsədilə federasiya cari ildən başlayaraq muxtar respublikanın bütün şəhər və rayonlarında silsilə tədbirlər keçirir, valideyn, idmançılar və məşqçi-müəllimlərlə görüşlər təşkil olunur. Ötən ay ilk dəfə olaraq Şərur rayonunda belə bir tədbir təşkil olundu və öz bəhrəsini verdi. Belə ki, şahmatçılarımız Astara şəhərində keçirilən Azərbaycan çempionatının seçmə mərhələsində uğurla çıxış edərək final mərhələsinə 11 vəsiqə qazandılar. Sədərək rayonunda da şahmatın inkişafı üçün imkanlar yaradılıb, şahmat məktəbi üçün müasir standartlara cavab verən bina tikilib. Yaradılan şəraitdən səmərəli istifadə edib istedadlı uşaqları üzə çıxarmaq və uğur qazanmaq qarşıda duran əsas vəzifə olmalıdır. Bu məqsədlə federasiya rayon İcra Hakimiyyəti və Gənclər və İdman Nazirliyi ilə birgə mütəmadi olaraq tədbirlər təşkil edir, çatışmazlıqların vaxtında aradan qaldırılmasına çalışır.

Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov qeyd etmişdir ki, ötən il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə idmanın inkişafı ilə bağlı tapşırıqlar verilmiş, qarşıya mühüm vəzifələr qoyulmuşdur. Sədərək Rayon İcra Hakimiyyəti də bu məsələni diqqətdə saxlamış, rayonda gənclərin şahmata cəlbi sahəsində işlər görülmüşdür. Həmçinin şahmat idman növünün kütləvi hal alması üçün federasiyanın rayon bölməsi ilə birgə tempo yarışlar təşkil edilmiş, şahmatçılarımız muxtar respublika birinciliklərində mübarizə aparmışlar.

Sonra federasiyanın sədr müavini Emin Hacıyev Sədərək rayonundakı fəal şahmatçılar haqqında məlumat vermişdir.

Şahmat Federasiyasının sədri Seymur Talıbov şahmatın inkişafında müəllim və valideynlərin üzərinə mühüm vəzifələr düşdüyünü bildirərək demişdir ki, şahmat məşqlərində uşaqların istedadının üzə çıxarılması əsas şərtdir. Bu iş müəllimləri daha çox düşündürməlidir. Hazırda Naxçıvan Muxtar Respublikasının tam orta məktəblərində şahmat dərsləri keçilir, şahmatçılar, eləcə də müəllimlər üçün hər bir şərait yaradılıb. Bundan səmərəli istifadə edib istedadlı uşaqları üzə çıxarmaq, şahmat məktəblərinə cəlb etmək lazımdır. Valideynlər bu idman növünü təbliğ etməli, uşaqların şahmata cəlbinə nail olmalıdırlar. Çünki uşaqlar şahmat məktəblərində bacarıqlarını inkişaf etdirməklə yanaşı, həm də asudə vaxtlarını səmərəli keçirirlər. İstedadlı, uğur qazanan idmançılar barədə isə federasiyaya məlumat verilməli, onlarla xüsusi olaraq məşqlər keçirilməlidir.

Seymur Talıbov vurğulamışdır ki, “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında” keçirilən müşavirədə də qeyd olunduğu kimi, dövlət tərəfindən qayğı və diqqətin göstərilməsinə baxmayaraq, Şahmat Federasiyasında hələ də nöqsanlar var. Bu nöqsanların aradan qaldırılması üçün müəllimlərlə tez-tez görüşlər keçiriləcək. Hər ay rayon şahmat məktəbləri gördükləri işlərlə bağlı federasiyaya məlumat verəcəklər. Sədərək rayonunda şahmatın kütləviliyi üçün hər bir imkan var. Şahmat məktəbində rayondaxili və kəndlərarası yarışlar keçirilməli, tempo turnirlər təşkil olunmalı, istedadlı uşaqlar yarışlara cəlb edilməlidir. Azərbaycan çempionatına vəsiqə qazanan şahmatçılar arasında sədərəkli idmançılar da olmalıdır. Bu idmançılar digərlərinə nümunə göstərilməli, valideynlərlə təbliğat işi aparılmalı, şahmatın müsbət tərəfləri onlara aşılanmalıdır.

Müəllimlərdən Qələndər Əliyev, Həsən Rzayev və İlqar Məmmədov çıxış edərək mövcud vəziyyət haqqında Şahmat Federasiyasının sədrinə məlumat vermiş, fikir və təkliflər dinlənilmişdir. Şahmat məktəbinin direktoru Elman Əliyev isə məktəb barədə məlumat vermişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov qeyd etmişdir ki, verilən tapşırıqların icrası məqsədilə Şahmat Federasiyası qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi üçün bir sıra işlər görülüb. Şərur rayonundan sonra artıq federasiya rəhbərliyi Sədərək rayonunda da idmançılar və məşqçi-müəllimlərlə görüş keçirir. Bu, muxtar respublikada şahmata, onun inkişafına nə qədər önəm verildiyinin göstəricisidir.

Sonda Şahmat Federasiyasının sədri Seymur Talıbov məşqçi-müəllimlərə işlərində uğurlar arzulayaraq bildirmişdir ki, muxtar respublika rəhbəri tərəfindən idmana hər zaman diqqət və qayğı göstərilir. Biz də qarşımıza qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün səylə çalışmalı, fəaliyyətimizi artırmalı, istedadlı uşaqların şahmatın sirlərinə daha da dərindən yiyələnməsi üçün çalışmalıyıq.

Görüşdən sonra federasiya sədri Şahmat məktəbində yerləşən elektron lövhə, kompüter və dərs sinifləri ilə tanış olmuşdur.

**“Şərq qapısı”**

# Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illiyi Bakıda qeyd edilib

***Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illik yubileyi ilə əlaqədar fevralın 8-də muxtar respublikanın Bakıdakı daimi nümayəndəliyində “Naxçıvanın muxtariyyət statusu” adlı dəyirmi masa keçirilib.***




Tədbirdə çıxış edən daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının çox mürəkkəb tarixi inkişaf yolu keçməsindən, 1924-cü il fevralın 9-da dövlətçilik tariximizdə baş vermiş mühüm hadisədən – Naxçıvan Muxtar Respublikasının yaranmasından danışıb. O qeyd edib ki, bu il yanvarın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı”na uyğun olaraq silsilə tədbirlər keçirilir.

Ümummilli lider Heydər Əliyevin Naxçıvanın muxtariyyətinin qorunması ilə bağlı dahiyanə fikirlərini diqqətə çatdıran daimi nümayəndəliyin rəhbəri Naxçıvanın düşmən təcavüzündən qorunmasında görkəmli dövlət xadiminin misilsiz xidmətlərindən bəhs edib. Vurğulanıb ki, bu siyasət Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinin qeyd olunması bir tərəfdən muxtar respublikaya göstərilən dövlət qayğısının ifadəsidirsə, digər tərəfdən Naxçıvan tarixinin əsaslı şəkildə öyrənilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Bəxtiyar Əsgərov muxtar respublikanın yaradılmasının müxtəlif dövrlərdə dövlət səviyyəsində qeyd olunmasından danışaraq deyib ki, Naxçıvanın müasir intibahı dövründə muxtariyyətin təntənə ilə qeyd olunması və əldə edilmiş bütün nailiyyətlər məhz ölkə Prezidenti cənab İlham Əliyevin adı ilə bağlıdır. Azərbaycan Prezidentinin 2014-cü il yanvarın 14-də imzaladığı Sərəncamla Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ölkəmizdə, eləcə də onun hüdudlarından kənarda təntənəli şəkildə qeyd olunub.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli Naxçıvanın dövlətçilik tariximizdə əhəmiyyətli yerə malik olduğunu vurğulayıb. Əlavə edib ki, Naxçıvanın muxtariyyətinin yaranması onun çoxəsrlik dövlətçilik ənənələrinin davamı kimi qəbul edilməlidir. Naxçıvan beş min ildən çox şəhərsalma mədəniyyətinə malikdir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası tarixən çox mürəkkəb və keşməkeşli inkişaf yolu keçib.

*Ardı 4-cü səhifədə*

Tarixboyu Naxçıvan müxtəlif imperiyaların maraq dairəsində olsa da, heç bir işğalçı ordu naxçıvanlıların iradəsini qıra bilməyib.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov deyib ki, Naxçıvanın muxtariyyətinin Azərbaycanın dünyada tanınmasında, möhtəşəm dövlətə çevrilməsində, ölkəmizdə sülhün, əmin-amanlığın, inkişafın, müxtəlif dinlərə mənsub insanların bir yerdə yaşamaq hüququnun tətbiq olunması siyasətinin dünyada tanınmasında böyük təsiri var.

Milli Məclisin aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov bildirib ki, 1990-cı ilin 17 noyabrı tarixin yaddaşına çevrilən bir gündür. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında mühüm tarixi qərarlar qəbul edilib. Qeyd olunub ki, 1991-ci il sentyabrın 3-də ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi zamanın tələbi idi.

Milli Məclisin deputatı Elman Nəsirov vurğulayıb ki, bu gün Naxçıvandan danışarkən biz fəxr hissi ilə Azərbaycanın müstəqillik tarixinin başlanğıc nöqtəsinin məhz Naxçıvan olduğunu deyirik. Böyük dövlət xadimi Heydər Əliyev Bakıya gəlişindən iki gün sonra – 1990-cı il iyulun 22-də doğma Naxçıvana pənah apramalı oldu.

Ölkəmizin dövlətçilik tarixində mühüm rol oynayan Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm mərhələ təşkil edib.

Milli Məclisin deputatı Jalə Əliyeva bildirib ki, çoxəsrlik dövlətçilik ənənələri olan Naxçıvan həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşadıb. Bu torpaq Azərbaycana, dünyaya xalqımızın böyük və əvəzedilməz, görkəmli şəxsiyyəti olan Heydər Əliyevi bəxş edib. Naxçıvan həm də Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılığ nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri var.

Türkiyənin ölkəmizdəki səfirliyinin nümayəndəsi Cengiz Güneş bildirib ki, Naxçıvanın Türkiyə üçün hər zaman önəmli bir yeri olub. Naxçıvanın böyük tarixi var. Mustafa Kamal Atatürk Naxçıvanın Türk dünyasının qapısı olduğunu deyib. O, Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm rol oynadığını diqqətə çatdırıb.

**AZƏRTAC**

# "Nəsimi həftəsi"nin açılışı olub

*Fevralın 11-də Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən görkəmli şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə "Nəsimi həftəsi"nə start verilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsi müdirinin müavini Sahir Rüstəmov çıxış edərək bildirib ki, bu il Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd olunur, 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan edilib. Belə bir tarixi ildə xalqımızın görkəmli şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə keçirilən "Nəsimi həftəsi" də ölməz sənətkarın həyatı və yaradıcılığının, ideallarının muxtar respublika gənclərinə tanıdılmasına və təbliğ edilməsinə geniş imkan açır.

Qeyd olunub ki, şair və mütəfəkkir İmadəddin Nəsimi irsinin sistemli tədqiqi və təbliği ötən əsrin 70-ci illərində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaradan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilib, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilib və beynəlxalq miqyasda qeyd olunub. Dünya poeziyasının ən kamil nümunələrini yaradan Nəsimi anadilli ədəbiyyatı poetik çalarlarla zənginləşdirib, ədəbiyyatımızı və dilimizi zirvəyə yüksəldib.

Vurğulanıb ki, əqidə yolunda, vahid amal uğrunda mübarizə edən sənətkar Nəsiminin yüksək humanizm və dünyəvilik ideallarına söykənən poeziyası dünən olduğu kimi, bu gün də aktual və müasirdir. İnanırıq ki, "Nəsimi həftəsi" çərçivəsində keçiriləcək tədbirlər gənclərimizin Nəsimi irsini öyrənmələri üçün faydalı olacaqdır.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxışında bildirib ki, fond klassik ədəbiyyatımızın təbliği, mənəvi dəyərlərimizə söykənən filmlərin gənclərə izlədilməsi, tarixi və təbiət abidələrinə ekskursiyaların, əlamətdar günlərlə bağlı tədbirlərin təşkili, milli köklərə bağlı tarixi peşələrin gənclərə aşılanması üçün mütəmadi işlər görülür. Bu gün start verilən "Nəsimi



həftəsi" də bu istiqamətdə aparılan tədbirlərin tərkib hissəsidir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, şair Asim Əliyev, Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasının professoru, Əməkdar elm xadimi Hüseyn Həşimli və AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova çıxış edərək ölməz şairimiz Nəsiminin həyat və yaradıcılığı haqqında gənclərə ətraflı məlumat veriblər.

Sonra gənclərin Culfa rayonundakı Xanəgah Abidə Kompleksinə ekskursiyaları təşkil olunub.

Qeyd edək ki, "Nəsimi həftəsi" 11-16 fevral tarixlərini əhatə edəcək. Hazırlanmış qrafikə əsasən bu müddət ərzində "Nəsimi" tarixi filminin nümayişi, Xalq şairi Qabilin "Nəsimi" poemasının müzakirəsi, İmadəddin Nəsiminin həyat və yaradıcılığına dair "Nə? Harada? Nə zaman?" intellektual oyunu, "Poeziyamızın fatehi" adlı bədii qiraət müsabiqəsi, "Nəsimi kəlamının işığında" adlı ədəbi-bədii gecə və "Nəsimi həftəsi"nin mükafatlandırma tədbirinin keçirilməsi nəzərdə tutulub. Tədbirlərdə gənclərin iştirakı üçün elektron formlar yaradılıb və həmin formlar vasitəsilə artıq yüzlərlə gənc həftə ərzində keçiriləcək tədbirlərdə iştirakçı olmaq üçün qeydiyyatdan keçib.

✍ **Nail ƏSGƏROV**

# Mediada Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə bağlı materiallara geniş yer verilib




***Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi münasibətilə ölkənin televiziya, qəzet və internet portallarında silsilə verilişlər, məqalələr, videomateriallar yayımlanıb.***

Ölkə televiziya kanalları Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi münasibətilə silsilə verilişlər və xəbər süjetlərinə geniş yer verib. Azərbaycan televiziyasının "Səhər" musiqili-informasiya proqramı bütövlükdə Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunub. Bununla bağlı televiziyanın efirində konsert və musiqi proqramları da təqdim olunub. AzTV-də həmçinin 9 fevral münasibətilə "Nuhun yurdu Naxçıvan", "XXI əsr salnaməsi – Naxçıvan" filmləri də yayımlanıb. Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin konserti izləyicilərə təqdim olunub. Azərbaycan dövlət radiosunda isə "Naxçıvan Muxtar Respublikası – 95" rubrikasında Naxçıvanın musiqi kollektivlərinin konsertinə yer verilib. "Mədəniyyət" kanalında "Ordubad kəhrizləri", "Naxçıvan yallıları", "Azərbaycan xalçaları Naxçıvan qrupu", "Heydər Əliyev və Naxçıvan" adlı veriliş və filmlər efirə təqdim olunub. "İctimai" televiziya isə Şərur Xalq Yallı Ansamblının konsertini yayımlayıb. Bu mövzuya, eyni zamanda "Lider" televiziyasının "Səda" proqramında da toxunulub.

Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlaqədar Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyində keçirilən "Naxçıvanın muxtariyyət statusu" adlı tədbir də Azərbaycan televiziyasının və "Xəzər" telekanalının "Xəbərlər" proqramında yayımlanıb.

Eyni zamanda ölkənin qəzet və internet portallarında da Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi münasibətilə məqalələr dərc olunub, foto və videomateriallar yayımlanıb. Akademik İsa Həbibbəylinin "Azərbaycan" qəzetində dərc edilən "Azərbaycanın "Nəqşi-Cahanı" məqaləsi maraqla qarşılanıb. Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanın "Muxtariyyətimizin və müstəqilliyimizin bəhrələri" məqaləsi "İki sahil" qəzetinin saytında yerləşdirilib, jurnalist Sahil Tahirlinin "Tarixin 95 ili" adlı məqaləsi "Nuhçıxan" İnformasiya Agentliyinin internet saytından və "Şərq qapısı" qəzetindən sonra "İki sahil" və "Palitra" qəzetlərində də dərc olunub, *Naxçıvanxeberleri.com*, eyni zamanda *Azinform.az* informasiya portallarında yayımlanıb. Türkiyənin "İğdır" qəzetində isə "O Naxçıvandır" sərlövhəli məqalə dərc olunub. Jurnalist Səməd Canbaxşiyevin "Muxtariyyətimiz varlığımızdır" məqaləsi "Nuhçıxan" İnformasiya Agentliyində yerləşdirilib. Azərbaycan Dövlət İnformasiya Agentliyinin saytında jurnalist Rauf Kəngərlinin "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinin qeyd olunması Heydər Əliyev siyasi xəttinə dərin sədaqətin bariz nümunəsidir", "Bu gün Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 ili tamam olur", həmçinin Türkiyənin nüfuzlu "Milliyyət" qəzetinin bloq saytında "95 il bundan əvvəl…" analitik məqaləsi yerləşdirilib. Bundan başqa, muxtariyyətin 95 illiyi münasibətilə ölkəmizin digər informasiya agentliklərində, portallarında da məqalə və xəbərlər yayımlanıb.

Bir neçə gündür ki, sosial şəbəkələrdə də Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə bağlı yüzlərlə paylaşımlar edilib, foto və videomateriallar yerləşdirilib, minlərlə izləyici tərəfindən təbrik və şərhlər yazılıb. Ölkəmizdən kənarda yaşayan həmvətənlərimiz də muxtariyyətin 95 illiyi ilə bağlı sosial şəbəkələrdə yazı və müxtəlif fotolar paylaşıblar.

Naxçıvan Dövlət Televiziyası və Radiosunun da 9 fevral proqramı bütövlükdə Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunub. Televiziya və radionun efirlərində bununla bağlı film, veriliş və keçidlər, eyni zamanda konsert proqramları yayımlanıb. "Nuhçıxan" İnformasiya Agentliyinin internet saytında yaradılan "Naxçıvan Muxtar Respublikası – 95" adlı bölmədə isə silsilə məqalələr, şeirlər, kliplər, fotoşəkillər və videomateriallar yerləşdirilib.

Azərbaycan Milli Kitabxanasında Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi ilə əlaqədar təşkil olunmuş "Naxçıvan Muxtar Respublikası – 95" adlı kitab sərgisi də ölkə mətbuatında geniş işıqlandırılıb.

***"Nuhçıxan" İnformasiya Agentliyi***

## Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi münasibətilə "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsi elan edir

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi münasibətilə "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsi elan edir.

**Müsabiqə aşağıdakı istiqamətlər üzrə keçirilir:**

*- qəzet məqaləsi;*
*- teleradio materialları;*
*- ədəbi yaradıcılıq (poema, şeir, nəsr, dram və sair);*
*- rəsm əsəri;*
*- memarlıq işi.*

**Müsabiqənin keçirilməsində məqsəd:**

Müsabiqənin keçirilməsində məqsəd Naxçıvan Muxtar Respublikasının muxtariyyət tarixinə nəzər salmaq, bu sahədəki yaradıcılıq fəaliyyətinə dəstək vermək, iştirakçıların bacarıqlarını və ideyalarını üzə çıxarmaq, muxtar respublikanın müstəqillik dövründəki inkişafını müxtəlif materiallarla təqdim etməkdir.

**Müsabiqədə iştirak:**

Yaradıcılıq qabiliyyəti olan hər kəs müsabiqədə iştirak edə bilər. Lakin bu zaman iştirakçı yalnız bir istiqamət seçməlidir.

**Müsabiqəyə təqdim olunmuş materialların qiymətləndirmə meyarları:**

*-işlərin bədii səviyyəsi və keyfiyyəti;*
*-müsabiqənin şərtlərinə cavab verməsi və istiqamətlərdən birini əhatə etməsi;*
*-ideyanın orijinallığı;*
*-işin təsiredici qüvvəyə malik olması və mövzunun asan qavranılması;*
*-yaradıcı yanaşma və mövzunun açılması.*

**Müsabiqəyə təqdim olunan materiallar aşağıdakı tələblərə cavab verməlidir:**

**Teleradio verilişi və qəzet məqaləsi:**

Müsabiqəyə təqdim olunan məqalələr müəllifin istəyinə uyğun olaraq "Şərq qapısı" və ya şəhər və rayon qəzetlərində dərc edilməli, "Nuhçıxan" İnformasiya Agentliyində yerləşdirilməli, teleradio materialları Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən televiziya və radiolarda efirə yayımlanmalı, bu zaman "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür" qeydi göstərilməlidir.

**Ədəbi nümunələr:**

Müsabiqəyə təqdim olunan ədəbi nümunələr üçün həcm məhdudiyyəti yoxdur. Ədəbi nümunələr (həcmi uyğun olsa) qəzetlərdə çap oluna bilər.

**Rəsm əsəri:**

Müsabiqəyə təqdim edilən rəsm əsərləri rəngkarlığın və qrafikanın müxtəlif texnikalarından istifadə olunmaqla (sulu boya, yağlı boya, quaş, qara qələm, qarışıq texnika və sair) və istənilən material üzərində işlənə bilər. Siyasi rəhbərlərin portretləri əsərlərdə əks oluna bilməz. Müsabiqəyə təqdim olunan rəsm əsərləri minimum 50x60 santimetr ölçüdə olmalıdır.

**Memarlıq nümunəsi:**

Memarlıq nümunələri eskiz formasında olmalı, muxtar respublikanın qədim və müasir memarlıq quruluşunu əks etdirməlidir.

**Müsabiqənin keçirilmə vaxtı:**

Müsabiqə 2019-cu il fevral ayının 12-dən noyabr ayının 30-dək keçiriləcəkdir. Yaradıcılıq müsabiqəsində iştirak etmək istəyənlər hazırladıqları işləri 2019-cu il noyabrın 30-dək şəxsiyyət vəsiqələrinin surəti ilə birlikdə Naxçıvan Muxtar Respublikasının Gənclər Fonduna təqdim etməlidirlər;

Qaliblər 2019-cu ilin dekabr ayında elan olunacaq və mükafatlandırılacaqlar.

**Müsabiqənin mükafat fondu aşağıdakı kimidir:**

*Birinci yer (1 nəfər) - 1000 manat*
*İkinci yer (2 nəfər) - 500 manat*
*Üçüncü yer (3 nəfər) - 300 manat*
*Həvəsləndirici yer (4 nəfər) - Qiymətli hədiyyələr*

***Ünvan: Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, Gənclər Mərkəzi***
***Əlaqə telefonu: (036) 550-84-27***


ŞƏRQ qapısı

**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1495. Sifariş № 119**